# Əsgərləri ilə birlikdə şəhid oldu



**…Həmin gün Ramil evə çox yorğun gəlmişdi, xeyli narahat təsir bağışlayırdı. Sabah tezdən ön cəbhəyə gedəcəyini dedi. Sentyabrın 26-da sübh tezdən durub yola hazırlaşdı. Evdən çıxanda üzünü həyat yoldaşına tutub dedi: "Torpaqlarımızın azadlığı uğrunda haqq savaşı başlayır. Mən sabah ön mövqedə olmalıyam. Sevil, uşaqları sənə əmanət edirəm. Onlardan muğayat ol"….**

O, Aysunu və Zəhranı bağrına basıb çoxlu-çoxlu öpdü. Sevil ona tez-tez əlaqə saxlamağı, özü haqqında xəbər verməyi tapşırdı.

2020-ci il sentyabrın 27-si Vətən müharibəsinin ilk günündən başlayaraq, mayor Ramil Ağayevin komandanlıq etdiyi artilleriya diviziyasının batareyalarının döyüş tapşırığı əsasən, düşmən istehkamlarını və müdafiə xəttini dağıtmaq, onları atəş altında saxlamaqdan ibarət idi. Onun komandanlığı altında 4 artilleriya batareyası və hər batareyada 6 top var idi. Toplar aramsız olaraq düşmən mövqelərini hədəfə alır və dəqiq atəşlə onları sıradan çıxarırdı.

...Dördgünlük ağır döyüşlərdən sonra düşmənin birinci xətdəki mövqeləri darmadağın olundu. Piyada qüvvələr düşməni sürətlə geri çəkilməyə məcbur etdikcə ehtiyat qüvvələr azad olunmuş mövqelərdə yerləşib, möhkəmləndirmə işlərinə başlayırdı. Artilleriya qüvvələrinə də dislokasiya yerlərini irəli çəkmək əmri verilmişdi. Uğurlu əməliyyatdan sonra düşmən əsgərləri meyitləri döyüş meydanlarında qoyub qaçırdı.

Oktyabrın 4-də hərbi hissəyə Horadiz kəndinə yola düşmək tapşırığı verildi. Milli Ordunun əsgərləri düşmənin güclü istehkamlarını darmadağın edərək sürətlə irəliləməyə başlamışdılar. Ətraf erməni əsgərlərinin meyitləri ilə dolu idi. Vəziyyətin gərginliyinə baxmayaraq, mayor Ramil Ağayev həmişə ayıq-sayıq idi, hər bir andan səmərəli istifadə edirdi. O, vəziyyəti qiymətləndirəndən sonra zirehli texnika, BMP və BTR-lər gətirdi və gecə səhərə qədər 6 top və 60 nəfərdən ibarət şəxsi heyət daha əlverişli mövqeyə yerləşdirildi.

…Cəbrayılın Daşkəsən kəndi ətrafında ağır döyüşlər gedirdi. Milli Ordunun texnika karvanı düşmən tərəfindən artilleriya atəşinə məruz qalmışdı. Aramsız artilleriya atəşləri altında döyüşçülər bir-birindən uzaqda yerləşməyə məcbur olmuşdu, onların arasında əlaqə yox idi. Onları xilas etmək, bir-birindən aralı düşən döyüşçüləri bir yerə toplamaq böyük təhlükə doğururdu. Mayor Ağayev cəsarət göstərərək bu işi öz üzərinə götürdü. O, taqıma yaxınlaşaraq pərən-pərən düşən üzvləri, bütün şəxsi heyəti bir yerə toplayaraq onları düşmənin artilleriya atəşi altından sağsalamat çıxarmağa nail oldu. Lakin həmin döyüşdə ermənilər onu hədəfə almışdılar. Mayor Milli Ordunun əsgərləri üçün böyük təhlükə yaradan düşmən mövqelərini sıradan çıxarmaq istəyirdi. Ona görə də 5 döyüşçü ilə birlikdə düşmən toplarını məhv etmək üçün nişan alırdılar. Son hazırlıq işləri gedirdi. Düşmən toplarının külünü göyə sovurmaq üçün bəlkə də bir neçə saniyə lazım idi. Elə bu vaxt düşmən hərbçiləri onları nişan alırlar. Ermənilərin atdığı raketlərdən biri onların yaxınlığına düşür. Mayor da, onunla birlikdə əsgərlər də şəhid olurlar.

Oktyabrın 8-də Ramil həyat yoldaşı Sevillə sonuncu dəfə telefonla danışıb: "Narahat olmayın, torpaqlar azad edildikcə irəli gedirik. Hər şey yaxşıdır. Əgər mənə zəng çatmasa, bundan narahat olmayın, vaxt olan kimi əlaqə saxlayacağam".

Bu, onunla sonuncu telefon danışığı olur. Ramil çox sevdiyi Vətən uğrunda döyüşlərdə canını qurban verərək üçrəngli bayrağa bükülərək qayıdıb. Onu Lerikdə atasının məzarının yanında dəfn ediblər.

Ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Böyük qızı Aysu Azərbaycan İqtisad Universitetinin Qida mühəndisliyi, digər qızı Zəhra isə Azərbaycan Dillər Universitetinin Regionşünaslıq fakültələrinə qəbul olunublar.

Azərbaycan. - 2025.- 11 oktyabr (№219).- S.12.